# KİTABLARIN VƏ DİSSERTASİYA AVTOREFERATLARININ BİBLİOMETRİK TƏHLİLİ BİBLİOQRAFİK BİLİYİN ELEMENTİ KİMİ (2003-2013-cü illər; müqayisəli təhlil)

**Aygün HACIYEVA**
*AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı, Azərbaycan Milli Kitabxanası Kitabxanaşünaslıq elmi-tədqiqat şöbəsinin müdiri*
aygun_haciyeva_87@mail.ru

***Библиометрический анализ книг и автореферат диссертаций, как элемент библиографических знаний (2003-2013-е годы; сравнительный анализ)***
***Резюме:*** *В статье отражены таблицы книг и автореферат диссертаций и был проведен сравнительный анализ библиографических записей по годам на территории страны в различных областях науки (УОТ), в выпусках, изданных в 2003-2013-х годах на основе Ежегодника «Книга Азербайджана», подготовленного отделом Регистрации печатной продукции и национальная библиография (Книжная Палата) Азербайджанской Национальной Библиотеки.*

***Bibliometric analysis books and dissertations abstracts as an element of bibliographic knowledge (2003-2013 years; a comparative analysis)***
***Abstract:*** *In article in 2003-2013 of "Annual Azerbaijan Bibliography" made by registration of Printed materials and national bibliography department, bibliometric analyses based on the bibliographic wring during that period in the country books printed on the different areas of science (UDC) and the numbers of dissertation synopsis of thesis reflected on the tables and comparative analyzes carried out for years.*

***Açar sözlər:*** *bibliometriya, statistik göstərici, bibliometrik təhlil, Birillik Azərbaycan Kitabiyyatı*
***Keywords:*** *bibliometrics, a statistical indicator, bibliometric analysis, Annual Azerbaijan Bibliography*
***Ключевые слова:*** *библиометрия, статистический показатель, библиометрический анализ, Ежегодник «Книга Азербайджана»*

## Giriş

İnformasiyanın kəmiyyət baxımından artdığı bir dövrdə onun qiymətləndirilməsi vacib məsələlərdən biridir. Bunun üçün isə yalnız statistik göstəricilər deyil, biblioqrafik göstəricilərdən də istifadə olunur. Burada elmin müxtəlif sahələri üzrə nəşrlərin sayı, elmi əsərlərə istinadların sayı əsas göstərici kimi istifadə olunur. Bu isə ölkənin ayrı-ayrı elm sahələrinin inkişafına verdiyi töhfəni



müəyyənləşdirməyə imkan verir. Elmin bibliometrik təhlilində öyrənmə obyektləri müxtəlif əlamətlərə görə (sənəd axını seqmentləri, mikroaxınlar) : müəllif, jurnal, mövzu bölmələri, ölkələr və s. qruplaşdırılmış nəşrlər hesab olunur. İstifadəçinin informasiya məsələlərinin həlli üçün bir çox öyrənilmiş və yoxlanılmış bibliometrik üsullara bunlar uyğun gəlir: statistik, nəşrlərin kəmiyyət hesablanması, sitat-indeks.

Bu gün bir çox ölkələr böyük elmi potensial ilə elmi fəaliyyətin nəticələrinin qiymətləndirilməsi zamanı bibliometrik göstəricilərdən fəal şəkildə istifadə edirlər və artıq tam bir analitiklər komandası mövcuddur. Onlar "elmi göstəricilərin öyrənilməsi" adlandırılan bibliometrik hesabatlar hazırlayırlar. Getdikcə bibliometrik üsulların tətbiqinə maraq artır. Bu iş isə əsasən elmi menecmentin vasitəsi hesab edilən bibliometrik məlumat bazaları əsasında aparılır. Bu zaman ekspert qismində informasiya biznesinin peşəkarları, konkret predmet sahəsinin ekspertləri, kitabxanaçılar iştirak edirlər.

Bibliometriya mətn və informasiyanın ölçülməsi üçün istifadə edilən üsullar çoxluğudur. Bibliometrik metodlardan kitabxana və informasiya elmləri sahəsində geniş istifadə olunur. Əsas məqsəd isə qiymətləndirmədir.

Kitabxana statistikasında kitabxana işinin bu və ya digər hadisə və ya prosesinin miqdar xarakteristikasını göstərici adlandırırlar. (1) Göstərici obyektin (sistemin, prosesin) xassələrindən birinin miqdar xarakteristikasıdır. (2) Göstərici - statistikanın əsas anlayışlarından biridir. Bu sosial-iqtisadi hadisə və proseslərin onların keyfiyyətinin müəyyən edilməsi, konkret məkan və zaman şərtlərində ümumiləşdirilmiş miqdar xarakteristikasıdır. (3)

Statistik göstərici - kəmiyyətlə ifadə edilən müəyyən edilmiş xassə, məcmunun bütövlükdə və ya onun hissələrinin keyfiyyətidir. Obyektlərin və həcmlərin hesablanması nəticəsində əldə edilmiş məlumatların məcmusu onun hissələrinin müəyyən edilmiş xarakteristikasını əks etdirir, həmçinin statistik göstəricilər hesab olunur. Lakin statistik göstəricilər bunlarla tamamlanmır, işlənib qurtarmır, əksər göstəricilər məlumatların nəticələrinin növbəti dəfə işlənməsi nəticəsində əldə olunur.

Statistik məlumatlar cədvəllər şəklində təqdim olunur və məzmununa görə ümumi elementlərə malik olan yalnız bir təsnifat və qruplara aid olan göstəricilərin bir sütun və sətirdə, daha sonra bir fəsil, bölmədə toplanması nəticəsində yaranır. (5)

Sosial obyektlərin bir çox mühüm xassələri ölçməyə təkan vermir. Kitabxana işində mövcud xassələrə nəşrlərin dəyəri və populyarlığı, kitabxananın işinin effektivliyi və fondun komplektləşdirilməsi, informasiya tələbatı və oxucu marağı, ədəbiyyatın köhnəlməsi və mütaliə mədəniyyəti aid edilir. Bu cür yanaşmanın çatışmazlıqları prosedurun subyektivliyi və nəticələrin riyazi işlənməsində məhdud imkanlar hesab olunur. Onlar psixoloji testlər və sosioloji cədvəllərin işlənməsi, qiymətləndirmə nəticələrinin çoxşaxəli təhlilinə imkan verən xüsusi riyazi aparatın yaradılması ilə aradan qaldırılır. (4)

### 2. Məsələnin qoyuluşu

Müasir bibliometrik tədqiqatlar məlumat - bibliometrik resursların köməyi əsasında aparılır. Bu cür resurslara biblioqrafik vəsaitlər də daxildir. Milli biblioqrafiya vəsaitləri ölkə ərazisində dərc olunan ədəbiyyatın retrospektiv biblioqrafiyasının tərtibində və kitab nəşri statistikasının aparılmasında mühüm əhəmiyyət kəsb edir. Tarixi-xronoloji və nəşriyyat tarixi baxımından özündə çox qiymətli məlumatları əks etdirən bu vəsaitlər ayrı-ayrı elm sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynayırlar. Əsası 1925-ci ildə qoyulmuş Azərbaycan Dövlət Kitab Palatası ölkənin bütün çap məhsulunun rəsmi biblioqrafik uçotunu apararaq, toplanan informasiyanı bir sıra retrospektiv və dövlət cari uçot-qeyd biblioqrafiya vəsaitləri vasitəsi ilə tələbatçılara çatdırırdı. Bu cür vəsaitlərdən biri də "Birillik Azərbaycan Kitabiyyatı"dır. 1960-cı ildən nəşr edilən "Birillik Azərbaycan Kitabiyyatı" il ərzində dilindən, mövzusundan, janrından asılı olmayaraq respublikada nəşr edilmiş bütün kitablar barəsində tam biblioqrafik məlumat verir. "Birillik Azərbaycan Kitabiyyatı"nda olan yardımçı göstəricilər və statistik məlumatlar respublikada nəşr edilən kitab məhsulunun tərkibi barədə müxtəlif aspektli informasiya əldə etməyə imkan yaradırdı. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kitabxanaya həvalə olunur. 2003-cü ildən Milli Kitabxana "Birillik Azərbaycan Kitabiyyatı"nın 1990, 1991, 1994-2011-ci illəri əhatə edən nəşrlərini hazırlayır. Vəsaitdə toplanmış material elm və fəaliyyət sahələri üzrə dövlət biblioqrafiyası orqanlarında istifadə edilən "Vahid təsnifat sxemi" əsasında təsnifləDdirilmişdir. Bölmələr daxilində əvvəlcə Azərbaycan, sonra isə rus dilində olan materiallar verilmişdir. Hər bir bölmə və yarımbölmə daxilində əlifba prinsipi gözlənilmişdir. Vəsaitin sonunda statistik göstəricilər və köməkçi aparat verilmişdir.

### 3. Məsələnin həlli yolları

Məqalədə "Birillik Azərbaycan Kitabiyyatı" adlı biblioqrafik göstərici əsasında son 10 ildə ölkə ərazisində Azərbaycan və rus dilində, həmçinin digər dillərdə çap olunmuş kitabların və dissertasiya avtoreferatlarının statistikası aparılmışdır. Apardığımız tədqiqatın nəticələri 3 cədvəldə əksini tapmışdır. Verilmiş cədvəllərdə 2003-2013-cü illərdə respublikada Azərbaycan və rus dillərində dissertasiya avtoreferatlarının və müxtəlif dillərdə çap edilmiş kitabların Universal Onluq Təsnifata (UOT) əsasən statistikası əksini tapmışdır. IV şöbə təsnifatdan çıxarıldığına görə cədvəldə qeyd olunmamışdır.

Məqalədə bibliometrik təhlil zamanı ölçü vahidi olaraq ayrıca nəşr (kitab, dissertasiya avtoreferatı) elmi biliyin real göstəricisi və elmi fəaliyyətin nəticəsi kimi nəzərə alınmışdır.

Biblioqrafik vəsaitin təhlili aşağıdakı ümumi parametrlər üzrə aparılmışdır:

- İllər üzrə kitabların və dissertasiya avtoreferatlarının dinamikası;
- UOT-ın sahələri üzrə kitabların və dissertasiya avtoreferatlarının dinamikası;



- Dil əlamətinə görə kitabların və dissertasiya avtoreferatlarının dinamikası;
- Dissertasiya avtoreferatlarının elmi dərəcələrə görə dinamikası.

İlk olaraq həmin illər ərzində çap edilmiş kitabların statistikasına nəzər salaq.

**Cədvəl №1. KİTABLAR**

| İllər | 0.Ümumi şöbə | 1.Fəlsəfə elmləri. Psixologiya | 2.Din.Teologiya | 3.İctimai elmlər | 5.Riyaziyyat.Təbiət elmləri | 6.Tətbiqi elmlər. Tibb elmləri. Texnika | 7.İncəsənət.Dekorativ-tətbiqi incəsənət.Foto sənəti. Musiqi. Oyunlar .İdman | 8.Dilçilik.Linqvistika.Bədii ədəbiyyat.Ədəbiyyatşünaslıq | 9.Coğrafiya.Tarix | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2003 | **95** (80az.,15rus) | **26** (22az.,4rus) | **28** (24az.,4rus) | **394** (343az.,51rus) | **97** (79az.,18rus) | **193** (171az.,22rus) | **59** (51az.,8rus) | **546** (512az.,34rus) | **79** (64az.,15rus) | **1517** (1346az.,171rus) |
| 2004 | **108** (99az.,9rus) | **25** (21az.,4rus) | **27** (26az.,1rus) | **404** (360az.,44rus) | **72** (54az.,18rus) | **133** (103az.,30rus) | **50** (44az.,6rus) | **742** (712az.,30rus) | **48** (37az.,11rus) | **1609** (1456az.,153rus) |
| 2005 | **129** (114az.,15rus) | **40** (34az.,6rus) | **37** (32az.,5rus) | **402** (370az.,32rus) | **68** (51az.,17rus) | **104** (91az.,13rus) | **49** (44az.,5rus) | **820** (758az.,59rus,1türk,2ing.) | **90** (70az.,19rus,1ing.) | **1739** (1564az.,171rus,1türk,3ing.) |
| 2006 | **108** (94az.,14rus) | **35** (34az.,1rus) | **35** (34az.,1rus) | **312** (283az.,29rus) | **76** (65az.,11rus) | **143** (123az.,20rus) | **57** (49az.,8rus) | **771** (742az.,29rus) | **19** (18az.,1rus) | **1556** (1442az.,114rus) |
| 2007 | **103** (100az.,3rus) | **36** (30az.,6rus) | **41** (39az.,2rus) | **560** (474az.,86rus) | **66** (45az.,21rus) | **72** (62az.,10rus) | **97** (84az.,13rus) | **703** (667az.,36rus) | **124** (97az.,27rus) | **1802** (1598az.,204rus) |
| 2008 | **97** (94az.,3rus) | **29** (27az.,2rus) | **31** (26az.,5rus) | **328** (278az.,42rus,8ing.) | **72** (52az.,20rus) | **97** (80az.,16rus,1ing.) | **126** (80az.,46rus) | **608** (554az.,49rus,3türk,2ing.) | **138** (117az.,21rus) | **1526** (1308az.,204rus,3türk,11ing.) |
| 2009 | **133** (131az.,2rus) | **29** (24az.,5rus) | **62** (61az.,1rus) | **436** (412az.,24rus) | **50** (42az.,8rus) | **115** (101az.,14rus) | **146** (103az.,43rus) | **247** (234az.,13rus) | **143** (121az.,22rus) | **1361** (1229az.,132rus) |
| 2010 | **132** (124az.,3rus,5ing.) | **39** (37az.,2rus) | **38** (33az.,5rus) | **454** (343az.,106rus,5ing.) | **88** (66az.,20rus,1türk,1ing. | **102** (87az.,15rus) | **149** (112az.,34rus,2türk,1ing | **770** (703az.,61rus,4türk,2ing | **156** (123az.,28rus,1türk,4ing | **1928** (1628az.,274rus,8türk,1 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | ) | | .) | .) | .) | 8ing.) |
| 2011 | **98** (97az.,1rus) | **30** (27az.,3rus) | **34** (31az.,3rus) | **367** (344az.,23rus) | **42** (34az.,8rus) | **103** (82az.,21rus) | **516** (490az.,26rus) | **78** (73az.,5rus) | **127** (102az.,25rus) | **1395** (1280az.,115rus) |
| 2012 | **125** (118az,6rus,1türk) | **31** (28az.,3rus) | **49** (46az.,1rus,2ing.) | **627** (525az.,97rus,1türk,2ing.,2alm.) | **68** (53az.,12rus,3ing.) | **116** (93az.,12rus,9ing.,2alm.) | **128** (106az.,12rus,6ing.,4alm.) | **550** (490az.,47rus,2türk,8ing.,1alm.,2fr.) | **189** (153az.,20rus,5türk,5ing.,2alm.,4fr.) | **1883** (1612az.,210rus,9türk,35ing.,11alm.,6fr.) |
| 2013 | **145** (127az.,7rus,1ing.,8alm.,2fr.) | **35** (30az.,5rus) | **51** (47az.,4rus) | **501** (443az.,47rus,2türk,7ing.,2alm.) | **59** (46az.,12rus,1ing.) | **117** (100az,14rus,3ing.) | **212** (163az.,23rus,1türk,17ing..,4alm.,3fr.,1ital.) | **790** (690az.,63rus,11türk,11ing.,6alm.,1gürcü.,1hind,1kor.,1yəh.,1fars,3fr.,1isp.) | **219** (187az.,11rus,2türk,12ing.,6alm.,1ukr.) | **2129** (1833az.,186rus,16türk,52ing.,26alm.,8fr.,1ital.,1isp.,1fars,1hind,1kor.,1yəh.,1ukr.,1gürcü) |
| Cəmi | **1273** (1178az.,78rus,1türk,6ing.,8alm.,2fr.) | **355** (314az.,41rus) | **433** (399az.,32rus,2ing.) | **4785** (4175az.,581rus,3türk,22ing.,4alm.) | **758** (587az.,165rus,1türk,5ing.) | **1295** (1093az.,117rus,13ing.,2alm.) | **1589** (1326az.,224rus,3türk,24ing.,8alm.,3fr.,1ital.) | **6625** (6135az.,426rus,10türk,25ing.,7alm.,5fr.,1gürcü,1hind,1kor.,1yəh.,1fars,1isp.) | **1332** (1089az.,200rus,8türk,22ing.,8alm.,4fr.,1ukr.) | **18445** (16296az.,1934rus,47türk,119ing.,37alm.,14fr.,1gürcü,1hind,1kor.,1yəh.,1fars,1ital.,1isp.,1ukr.) |

1 №li cədvələ nəzər saldıqda hər bir şöbə üzrə müxtəlif dillər üzrə hər il nə qədər kitabın çap edildiyini görə bilərik. Belə ki, 2003-2013-cü illərdə cəmi 18445 kitab çap olunmuşdur ki, bunlardan ən aşağı göstərici 2009-cu ildə (1361), ən yüksək göstərici isə 2013-cü ildə (2129) müşahidə edilmişdir.

0-Ümumi şöbə üzrə cəmi 1273 kitab çap edilmişdir ki, bunlardan ən az kitab 2003-cü ilin (95), ən çox kitab isə 2013-cü ilin (145) payına düşür.

I-Fəlsəfə elmləri. Psixologiya şöbəsi üzrə ən az kitab 2004-cü ildə (25), ən çox kitab isə 2005-ci ildə (40) nəşr edilmişdir. Bu illər ərzində çap edilmiş kitabların ümumi sayı 355-dir.



II-Din.Teologiya sahəsi üzrə ən aşağı göstərici 2004-cü ildə (27), ən yüksək göstərici isə 2009-cu ildə (62) müşahidə olunur. 2003-2013-cü illər ərzində nəşr edilmiş kitabların ümumi sayı 433-dür.

III-İctimai elmlər üzrə çap olunmuş kitabların ümumi sayı 4785 olmuş, ən aşağı göstərici 2006-cı ildə (312), ən yüksək göstərici isə 2012-ci ildə (627) qeydə alınmışdır.

V-Riyaziyyat. Təbiət elmləri sahəsi üzrə ən az kitab 2011-ci ildə (42), ən çox kitab isə 2003-cü ildə (97) çap edilmişdir. Ümumi say 758-dir.

VI-Tətbiqi elmlər.Tibb elmləri.Texnika sahəsi üzrə nəşr edilmiş kitabların ümumi sayı 1295 olmuş, bunlardan ən az kitab 2007-ci ildə (72), ən çox kitab isə 2003-cü ildə (193) nəşr edilmişdir.

VII-İncəsənət.Dekorativ-tətbiqi incəsənət.Foto sənəti.Musiqi.Oyunlar.İdman şöbəsi üzrə ən az kitab 2005-ci ildə (49), ən çox kitab isə 2011-ci ildə (516) nəşr edilmiş, 10 il müddətində isə cəmi 1589 kitab çap edilmişdir.

VIII-Dilçilik.Linqvistika.Bədii ədəbiyyat.Ədəbiyyatşünaslıq sahəsi üzrə ən aşağı göstərici 2011-ci ildə (78), ən yüksək göstərici isə 2005-ci ildə (820) qeydə alınmış, çap olunan kitabların ümumi sayı isə 6625 təşkil etmişdir.

IX-Coğrafiya.tarix şöbəsi üzrə ən az kitab 2006-cı ildə (19), ən çox kitab isə 2013-cü ildə (219) nəşr edilmiş, çap edilmiş kitabların ümumi sayı isə 1332 olmuşdur.

Bu göstəriciləri müqayisəli şəkildə nəzərdən keçirdikdə 2003-2013-cü illər ərzində hər il çap olunan kitabların sayının artdığını görmək mümkündür.

Qeyd edilən illər ərzində ən az kitab I-Fəlsəfə elmləri.Psixologiya sahəsi üzrə (355), ən çox kitab isə VIII-Dilçilik. Linqvistika. Bədii ədəbiyyat. Ədəbiyyatşünaslıq sahəsi üzrə (6625) çap edilmişdir. Bu isə informasiya istifadəçilərinin hansı elm sahəsi üzrə olan kitablara daha çox tələbatı olduğunu aydın şəkildə görməyə imkan verir. Bununla isə bilavasitə nəşriyyatların daha çox hansı elm sahəsinə dair ədəbiyyatı nəşr etdiklərini və hansı sahə üzrə alimlərin, mütəxəssislərin, yazarların daha məhsuldar fəaliyyət göstərdiyini müşahidə etmək mümkündür.

Bundan əlavə, bu illər üzrə hansı dildə nə qədər kitabın nəşr edildiyinə nəzər sala və ən çox kitabın təbii olaraq Azərbaycan dilində (16296) çap edildiyini görə bilərik. Nəşr edilmə sayına görə II yerdə rus dilində olan kitablar (1934), III yerdə isə ingilis dilində olan kitablar (119) durur.

İndi isə dissertasiya avtoreferatlarının statistikasını aparaq.

## Cədvəl №2. AVTOREFERATLAR

| İllər | 0.Ümumi şöbə | | 1.Fəlsəfə elmləri. Psixologiya | | 2.Din. Teologiya | | 3.İctimai elmlər | | 5.Riyaziyyat. Təbiət elmləri | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Elm.dok. | Fəls.dok. | Elm.dok | Fəls.dok. | Elm.dok. | Fəls.dok. | Elm. dok. | Fəls.dok. | Elm.dok | Fəls. dok. |
| 2003 | | 2 (1 az.,1rus) | 1 (rus) | 2 (az.) | | | 9 (az.) | | 37 (2az.,35rus) | 86 (26az.,60rus) |
| 2004 | 1 (az.) | 1 (az.) | 6 (az.) | 5 (az.) | | | 10 (8az.,2rus) | 85 (59az.,26rus) | 22 (4az.,18rus) | 98 (33az.,65rus) |
| 2005 | | 2 (az.) | 2 (1az.,1rus) | 29 (21az., 8rus) | | 1 (az.) | 8 (7az.,1rus) | 109 (78az.,31rus) | 20 (3az.,17rus) | 88 (28az.,60rus) |
| 2006 | | | 2 (az.) | 10 (8az.,2rus) | | | 6 (2az.,4rus) | 72 (55az.,17rus) | 8 (1az.,7rus) | 64 (26az.,38rus) |
| 2007 | 1 (az.) | 3 (2az., 1rus) | 6 (4az.,2rus) | 24 (19az., 5rus) | | 3 (az.) | 11 (3az.,8rus) | 174 (126az., 48rus) | 21 (3az.,18rus) | 128 (6az.,68rus) |
| 2008 | 4 (1az., 3rus) | 16 (12az.,4rus) | 2 (1az.,1rus) | 9 (5az.,4rus) | | | 9 (8az.,1rus) | 146 (105az., 41rus) | 18 (4az.,14rus) | 22 (5az.,17rus) |
| 2009 | 1 (az.) | | 3 (1az.,2rus) | 21 (15az., 6rus) | | | 11 (8az.,3rus) | 117 (97az.,20rus) | 12 (4az.,8rus) | 100 (77az.,23rus) |
| 2010 | | 2 (az.) | 2 (az.) | 27 (26az., 1rus) | | | 16 (13az., 3rus) | 162 (138az., 34rus) | 26 (12az., 14rus) | 136 (93az.,43rus) |
| 2011 | | 6 (az.) | 3 (1az.,2rus) | 14 (12az., 2rus) | | 4 (az.) | 15 (az.) | 140 (116az., 24rus) | 15 (az.) | 140 (116az., 24rus) |
| 2012 | | | 3 (2az.,1rus) | 25 (24az., 1rus) | | | 7 (6az.,1rus) | 173 (137az., 36rus) | 19 (12az., 7rus) | 119 (92az.,27rus) |
| 2013 | | | 4 (2az.,2rus) | 21 (19az., 2rus) | | 3 (az.) | 16 (14az., 2rus) | 124 (104az., 20rus) | 42 (24az., 18rus) | 131 (96az.,35rus) |
| Cəmi | 7 (4az., 3rus) | 32 (26az.,6rus) | 34 (22az., 12rus) | 187 (156az.,31rus) | | 11 (az) | 118 (93az., 25rus) | 1302 (1015az.,297rus) | 240 (84az., 156rus) | 1112 (598az., 460rus) |



## Cədvəl №2 (davamı)

| İllər | 6.Tətbiqi elmlər. Tibb elmləri. Texnika | | 7.İncəsənət. Dekorativ-tətbiqi incəsənət. Foto sənəti. Musiqi. Oyunlar. İdman | | 8.Dilçilik. Linqvistika. Bədii ədəbiyyat. Ədəbiyyatşünaslıq | | 9.Coğrafiya. Tarix | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Elm.dok. | Fəls.dok. | Elm.dok. | Fəls.dok | Elm.dok. | Fəls.dok. | Elm.dok. | Fəls.dok. | |
| 2003 | 17 (rus) | 106 (40az., 66rus) | 2 (1az., 1rus) | 11 (8az., 3rus) | 15 (12az., 3rus) | 36 (24az., 12rus) | 7 (6az., 1rus) | 24 (18az., 6rus) | 355 (elm. dok.88, fəl. dok.267) |
| 2004 | 13 (rus) | 135 (59az., 76rus) | 4 (2az., 2rus) | 32 (19az., 13rus) | 13 (9az., 4rus) | 58 (42az., 16rus) | 14 (8az., 6rus) | 34 (25az., 9rus) | 531 (elm. dok.83, fəl. dok.448) |
| 2005 | 26 (3az., 23rus) | 142 (67az., 76rus) | 5 (az.) | 29 (13az., 16rus) | 7 (6az., 1rus) | 90 (65az., 25rus) | 7 (3az., 4rus) | 45 (36az., 9rus) | 610 (elm. dok.75, fəl. dok.535) |
| 2006 | 14 (3az., 11rus) | 95 (47az., 48rus) | 1 (rus) | 8 (6az., 2rus) | 11 (2az., 9rus) | 73 (62az., 11rus) | 5 (az.) | 26 (20az., 6rus) | 395 (elm. dok.47, fəl.dok. 348) |
| 2007 | 20 (rus) | 192 (88az., 104rus) | 4 (1az., 3rus) | 31 (17az., 14rus) | 12 (7az., 5rus) | 105 (93az., 12rus) | 5 (4az., 1rus) | 42 (34az., 8rus) | 782 (elm. dok.80, fəl.dok. 702) |
| 2008 | 22 (5az., 17rus) | 160 (82az., 78rus) | 4 (3az., 1rus) | 37 (30az., 7rus) | 11 (10az., 1rus) | 108 (84az., 24rus) | 6 (5az., 1rus) | 46 (38az., 8rus) | 630 (elm. dok.86, fəl.dok. 544) |
| 2009 | 15 (8az., 7rus) | 113 (75az., 38rus) | 2 (1az., 1rus) | 15 (14az., 1rus) | 15 (13az., 2rus) | 57 (51az., 6rus) | 3 (2az., 1rus) | 26 (25az., 1rus) | 511 (elm. dok.62, fəl.dok. 449) |
| 2010 | 21 (9az., 2rus) | 155 (90az., 65rus) | 24 (20az., 4rus) | 3 (2az., 1rus) | 12 (11az., 1rus) | 94 (77az., 17rus) | 5 (3az., 2rus) | 53 (42az., 11rus) | 738 (elm. dok.106, fəl.dok. 632) |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2011 | **32** (17az., 15rus) | **148** (89az., 59rus) | **5** (3az., 2rus) | **34** (26az., 8rus) | **13** (12az., 1rus) | **88** (73az., 15rus) | **11** (8az., 3rus) | **34** (29az., 5rus) | **702** (elm. dok.94, fəl.dok. 608) |
| 2012 | **13** (6az., 7rus) | **160** (104az., 56rus) | **6** (4az., 2rus) | **20** (15az., 5rus) | **8** (6az., 2rus) | **102** (88az., 14rus) | **9** (6az., 3rus) | **43** (34az., 9rus) | **707** (elm. dok.65, fəl.dok. 642) |
| 2013 | **32** (16az., 16rus) | **123** (82az., 41rus) | **2** (rus) | **34** (27az., 7rus) | **13** (10az.,3rus) | **69** (55az.,14rus) | **7** (az.) | **41** (35az., 6rus) | **662** (elm.dok.116,fəl.dok.546) |
| Cəmi | **225** (67az.,148rus) | **1529** (823az., 707rus) | **59** (40az.,19rus) | **254** (177az.,77rus) | **130** (98az.,32rus) | **880** (714az., 166rus) | **79** (57az.,22rus) | **414** (336az.,78rus) | **6538** (elm.dok. 817,fəl.dok.5721) |

2 №li cədvələ nəzər saldıqda görərik ki, 0-Ümumi şöbə üzrə 2003, 2005, 2006, 2010, 2011, 2012 və 2013-cü illərdə elmlər doktoru, 2006, 2009, 2012 və 2013-cü illərdə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya avtoreferatı çap edilməmişdir. Bu şöbə üzrə həm elmlər doktoru (4), həm də fəlsəfə doktoru (16) elmi dərəcələri almaq üçün ən çox dissertasiya avtoreferatı 2008-ci ildə çap edilmişdir.

I-Fəlsəfə elmləri.Psixologiya şöbəsi üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2004 (6) və 2007-ci illərdə (6), ən az isə 2003-cü ildə (1), fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2005-ci ildə (29), ən az isə 2003-cü ildə (2) çap edilmişdir.

II-Din.Teologiya şöbəsi üzrə bu illər ərzində elmlər doktoru elmi dərəcəsi almaq üçün bir dənə də olsun dissertasiya avtoreferatı, 2003, 2006, 2008, 2009, 2010 və 2012-ci illərdə isə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya avtoreferatı çap edilməmişdir. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2011-ci ildə (4), ən az isə 2005-ci ildə (1) çap edilmişdir.

III-İctimai elmlər şöbəsi üzrə 2003-cü ildə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya avtoreferatı çap edilməmişdir. Elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2010 (16) və 2013-cü illərdə (16), ən az isə 2006-cı ildə (6) çap edilmişdir. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2007-ci ildə (174), ən az isə 2006-cı ildə (72) çap edilmişdir.

V-Riyaziyyat. Təbiət elmləri sahəsi üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2013-cü ildə (42), ən az isə 2006-cı ildə (8), fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2011-ci ildə (140), ən az isə 2008-ci ildə (22) çap edilmişdir.



VI-Tətbiqi elmlər.Tibb elmləri.Texnika sahəsi üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2011 (32) və 2013-cü illərdə (32), ən az isə 2004 (13) və 2012-ci illərdə (13), fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2007-ci ildə (192), ən az isə 2006-cı ildə (95) çap edilmişdir.

VII-İncəsənət.Dekorativ-tətbiqi incəsənət.Foto sənəti.Musiqi.Oyunlar.İdman şöbəsi üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2010-cu ildə (24), ən az isə 2006-cı illərdə (1), fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2008-ci ildə (37), ən az isə 2010-cu ildə (3) çap edilmişdir.

VIII-Dilçilik.Linqvistika.Bədii ədəbiyyat.Ədəbiyyatşünaslıq sahəsi üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2003 (15) və 2009-cu illərdə (15), ən az isə 2005-ci illərdə (7), fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2008-ci ildə (108), ən az isə 2003-cü ildə (36) çap edilmişdir.

IX-Coğrafiya.tarix şöbəsi üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2004-cü ildə (14), ən az isə 2009-cu ildə (3), fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ən çox dissertasiya avtoreferatı 2010-cu ildə (53), ən az isə 2003-cü ildə (24) çap edilmişdir.

2003-2013-cü illər ərzində 0-Ümumi şöbə üzrə cəmi 39, I- Fəlsəfə elmləri.Psixologiya şöbəsi üzrə 221, II-Din.Teologiya şöbəsi üzrə 11, III-İctimai elmlər şöbəsi üzrə 1420, V-Riyaziyyat.Təbiət elmləri şöbəsi üzrə 1362, VI-Tətbiqi elmlər.Tibb elmləri.Texnika şöbəsi üzrə 1754, VII- İncəsənət.Dekorativ-tətbiqiincəsənət.Foto sənəti.Musiqi.Oyunlar.İdman şöbəsi üzrə 313, VIII-Dilçilik.Linqvistika.Bədii ədəbiyyat.Ədəbiyyatşünaslıq şöbəsi üzrə 1010, IX-Coğrafiya.Tarix şöbəsi üzrə 493 dissertasiya avtoreferatı çap edilmişdir. Buradan isə görürük ki, ən çox dissertasiya avtoreferatı VI- Tətbiqi elmlər.Tibb elmləri.Texnika şöbəsinin, ən az isə II-Din.Teologiya şöbəsinin payına düşür.

2003-2013-cü illərdə nəşr edilmiş dissertasiya avtoreferatlarının ümumi sayı 6538 olmuş, bunlardan 817-sini elmlər doktoru, 5721-ni isə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün çap edilmiş dissertasiya avtoreferatı təşkil edir.

Bütün elm sahələri üzrə bu illər ərzində ən çox dissertasiya avtoreferatı 2007-ci ildə (782), ən az isə 2003-cü ildə (355) çap edilmişdir. Ən az elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya avtoreferatı 2006-cı ildə (47), ən çox isə 2013-cü ildə (116), ən az fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya avtoreferatı 2003-cü ildə (267), ən çox isə 2007-ci ildə (702) çap edilmişdir.

Bu illər ərzində bütün şöbələr üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün Azərbaycan dilində ən çox dissertasiya avtoreferatı III-İctimai elmlər şöbəsi üzrə (93), rus dilində isə V-Riyaziyyat.Təbiət elmləri şöbəsi üzrə (156) çap edilmişdir. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Azərbaycan dilində ən çox dissertasiya avtoreferatı III-İctimai elmlər şöbəsi üzrə (1015), rus dilində isə VI- Tətbiqi elmlər.Tibb elmləri.Texnika şöbəsi üzrə (707) çap edilmişdir.

Bu illər ərzində bütün şöbələr üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün Azərbaycan dilində ən az dissertasiya avtoreferatı 0-Ümumi şöbə üzrə (4), rus dilində də eynilə həmin şöbə üzrə (3) çap edilmişdir (nəzərə alsaq ki, II-Din.Teologiya şöbəsi üzrə ümumiyyətlə elmlər doktoru elmi dərəcəsi almaq üçün bu illər ərzində heç bir dissertasiya avtoreferatı çap edilməmişdir). Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Azərbaycan dilində ən az dissertasiya avtoreferatı II-Din.Teologiya şöbəsi üzrə (11), rus dilində isə 0-Ümumi şöbə üzrə (6) çap edilmişdir (nəzərə alsaq ki, II-Din.Teologiya şöbəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün bu illər ərzində rus dilində heç bir dissertasiya avtoreferatı çap edilməmişdir).

**4. Nəticə**

2003-2013-cü illər ərzində çap olunuş kitabların və dissertasiya avtoreferatlarının bibliometrik təhlili aşağıdakı statistik məlumatları müəyyənləşdirməyə imkan verir:

- Kitabların və dissertasiya avtoreferatlarının əsas mövzu istiqamətini;
- Elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün çap edilmiş dissertasiya avtoreferatlarının sayının qarşılıqlı əlaqəsini;
- İllər üzrə çap edilmiş kitabların və dissertasiya avtoreferatlarının artımını;
- 2003-2013-cü illər ərzində çap edilmiş kitabların və dissertasiya avtoreferatlarının əsas mövzularının qarşılıqlı əlaqəsini;
- Bu illər üzrə hansı dildə nə qədər kitabın və nə qədər dissertasiya avtoreferatının nəşr edildiyini.

**Ədəbiyyat**


1. Библиотечное дело: Терминол. слов. / Сост. И.М.Суслова, Л.Н.Уланова. 2-е перераб. и значит. доп. изд. М.:Книга, 1986. 222с.
2. Гольдберг А.Л. О терминологии предпринимаемого исследования // Проблемы оптимизации функционирования библиотечных систем. Л., 1981. С.15-19.
3. Кильдишев Г.С., Овсиенко В.Е., Рабинович П.М., Рябушкин Т.В. Общая теория статистики. М.: Статистика, 1980. 432с.
4. Мотылев В.М. Основы количественных исследований в библиотечной теории и практике. Л.: Наука, 1988. 198с.
5. Общая теория статистики. Под ред. А.Я.Боярского, Г.Л.Громыко.- 2-е изд.- М.: Изд-во Моск. Ун-та, 1985. 376с.


*Məqalə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının 15 aprel 2015-ci ili tarixli 8 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*
*Rəyçilər: dosent N.İ.İsmayılov, fəlsəfə doktoru X.Ağayeva*